# Rumlular

### I Şah İsmayıl dövrü (1501 – 1524)

Bu boy başlıca olaraq Sivasın Qoyulhisar (Qoylahisar) və Qarahisar (Şəbin) qəzaları ilə yenə Sivasa bağlı digər yörələr və Toqat – Amasya bölgələrindəki kəndli Qızılbaşlar tərəfindən meydana gətirilmişdi. Rumluların dövlətin qurulmasında önəmli bir rol oynadıqları yuxarıda görünmüşdü. Nur Əli Xəlifə, Piri Bəy və Div Sultan bu təşəkkülün ən tanınmış bəyləridir. Div Sultanın əsl adı Div Əli Bəydir; onun Toqat bölgəsi xalqından olduğu anlaşılır. Göründüyü kimi Div Sultan, dövlətin quruluşuna qatılmışdı. Dirliyi (tiyul) Səd Çuxuru (İrəvan bölgəsi) olub, əmirül-üməralığa sadəcə şəxsi qabiliyyətləri sayəsində yüksəlmişdir. Özündən başqa yenə Rumludan Badıncan Sultan (Ərdəbil valisi), Qazaq Sultan, Sofiyan Xəlifə və Ayqud Bəyi tanıyırıq.

### I Şah Təhmasib dövrü (1524 – 1576)

Rumluların başlıca olaraq Sivas, Toqat bölgəsi əhalisindən meydana gəldiklərindən və bundan dolayı da onlara Rumlu deyildiyindən daha öncə bəhs edilmişdi. Rumlular, yalnız və ya çoxluqla kənd və şəhər əhalisindən mütəşəkkil idilər. Bu nədənlə onların irəli gələnlərinin bir qismi xəlifə ünvanı daşıyırlar. Hicri 940 (1533-1534) tarixində Təhmasibin yaxın əmirlərindən Əmir Bəy (Sultan) bu boydandır. Tarixçi Rumlu Həsən Bəy, hicri 946-cı (1539-1540) ildə ölən bu Əmir Sultanın nəvəsidir. Hicri 937-də (1530-1531) Qum şəhərində doğulan tarixçi Həsən Bəy, qorucular arasında bulunaraq bir çox səfərlərə qatılmışdır. Rumlu Süleyman Sultan  hicri 940-cı (1533-1534) ildə, Əmir Sultan kimi, mərkəz əmirlərindən idi.

Rumlulardan digər bir əmir də Sofiyan Xəlifə idi. Sofiyan Xəlifə 941-də (1534-1535) Məşhəd və 942-də Herat valiliyində bulunmuş və eyni ildə Özbək hökmdarı Übeyd Xan ilə etdiyi bir savaşda öldürülmüşdür. Onun Sivas şəhəri əhalisindən olduğunu bilirik. Rumlulardan Hüseyin Can Sultan da böyük əmirlərdən olub hicri 954-də (1549) Çuxursəd valisi idi. Pir Sultan Xəlifə də Hüseyin Can Sultana çağdaş Rumlu əmirlərindən biridir. Eyni ildə Rumlu Qanqara Sultanın İskəndər Paşa ilə edilən savaşa qatıldığını bilirik. Rumlu Ədhəm Bəyə gəlincə, bu əski əmirül-üməra Div Sultanın oğlu idi. Onun hicri 954-də (1547 Dekkan hökmdarına elçilik ilə göndərildiyi görünür. Ölümü hicri 959-cu ildən sonradır. Vəli Xəlifə, Şah Qulu Bəy, Aras Xan və Hüseyin Qulu Xüləfa Təhmasibin son zamanlarındakı Rumlu əmirlərini təşkil edirlər. Bunlardan Aras Xan Şirvan valisi olub, Osmanlı – Səfəvi hərbində Özdəmir Oğlu Osman Paşa ilə savaşması dolayısı ilə bizim tarixlərdə də adı keçir. Hüseyin Quluya gəlincə, o, əvvəlcə qeyd edildiyi kimi, xəlifətül-xüləfa idi. Bu sifətlə Türkiyənin hər tərəfindən gələrək dövlət mərkəzi Qəzvində oturan 10,000 qədər sofunun başı sayılırdı. Bununla yanaşı, Hüseyin Qulu Xüləfanın ən mötəbər dövlət ərkanından biri sayılması daha ziyadə ağıllı və dirayətli bir şəxsiyyət olmasından irəli gəlmişdir. Şah Təhmasib öldüyü zaman ən qüvvətli şəxsiyyət olaraq Hüseyin Qulu Xüləfa görünməkdədir. Gerçəkdən də çoxsaylı olan rəqiblərinə qələbə çalaraq taxtı İsmayıl Mirzəyə təmin etmişdir. Hüseyin Qulu Xüləfanın çağdaşı olan Rumludan bir başqa əmir də Xoy valisi Dəli Budaq olub, dürüst, təmiz inanclı bir Türk idi. İsfahanlı Fəzliyə görə Təhmasibin ölümü əsnasında bir qisminin adlarını verdiyimiz doqquz Rumlu əmiri vardı.

### II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)

Görmüş olduğumuz kimi, Rumluların çoxu Aras Xan ilə birlikdə Şirvanda yaşayırdılar. Osmanlı fəthi üzərinə Şirvandakı Rumlular, gərək insanca, gərək malca, ağır itkilər verib pərişan bir duruma düşmüşlər və Arasbaran tərəflərində tutunmağa çalışmışlar. Osmanlı fəthi başladığı zaman yenə Rumludan bir bölüyün Mahmud Sultan idarəsində Xoyda oturduqlarını bilirik. Rumlulardan bir bölüyün də Dərviş Məhəmməd Xan ilə birlikdə Xorasanın Nişapur şəhərində yaşadıqlarını görmüşdük.

II İsmayıl və Sultan Məhəmməd zamanlarında xəlifətül-xüləfalıq mövqeyinin çox dəfə Rumluların əlində olduğunu bilirik. İsmayıl, Hüseyin Quludan sonra bu mövqeyi Bulqar Xəlifəyə vermişdi ki, onun da Rumludan olması ehtimaldır. Adı keçən hökmdar, Bulqar Xəlifənin oğlu Nur Əli Xəlifəyə də əmirlik vermişdi. Deyildiyi kimi, İsmayıl, təbərra məsələsində yalan söylədiyinə qane olub onu (yəni Bulqar Xəlifəni) vəzifədən kənarlaşdırmış və Ustacludan Dədə Xəlifəni xəlifətül-xüləfa etmişdi. Anlaşıldığına görə, Sultan Məhəmməd taxta keçirildikdə, bu mövqeyə yenə Rumludan Şah Qulu Sultan gətirilmişdir. Şah Qulu Sultanı hicri 995-də (1587) xəlifətül-xüləfalıq mövqeyində görürük. Abbas hökmdar olduqda bu mövqeyi yenə Rumludan Dəli Budağın oğlu Qorxmaza verdisə də Mürşid Qulu Xanın basqısına qarşı gələn əmirlər arasında bulunduğundan onlar ilə birlikdə öldürüldü (hicri 996 = 1588). Bunun üzərinə əski xəlifətül-xüləfa Şah Qulu Sultan bu məmuriyyətə gətirildi.

Rumludan bəhs edilməsi lazım gələn bir əmir də Şah Qulu Bəydir ki, bu bəy dövrünün ən ünlü Türkcə şeir söyləyənlərindən biri idi. Həmzə Mirzənin Şeytan ləqəbli sevgilisi haqqında oxuduğu şeir, İskəndər Bəydən nəqlən yuxarıda zikr edilmişdi. Sadıq Bəy onun böyük bir şair olduğunu özəlliklə qeyd edir.

«Göňlüm quşın ol nərgis-i fəttan apara

Kimdür ki, onuň qəmzəsindən can apara

Şeytan Şeytan didükləri gər bu olsa

Mən razıyam imanımı Şeytan apara»

**I Şah Abbas dövrü (1587 – 1629)**

Rumluların başlıca olaraq Sivas, Amasya, Toqat bölgəsinin oturaq Qızılbaş Türklərindən meydana gəlmiş bir topluluq olduğu söylənmişdi. Onun üçün bu topluluğun oymaqları yoxdur. Yalnız Rumlunun bir qolu Qoyla Hisarlu adıyla anılır. Qolya Hisar Sivasın Kəlkit vadisindəki qəzalarından biri olub, bu gün Qoyulhisar adı ilə anılır.

Şah Abbas dövründə Rumluların ən böyük əmiri Dərviş Məhəmməd Xan idi. Abbas hicri 1001-ci (1593) ildə Nişapuru Özbəklərdən geri aldıqda oraya əski valilərdən Rumlu Dərviş Məhəmməd Xanı təyin etmişdi. Görüləcək işin əhlini təqdir etmək qabiliyyətinə sahib olan Abbas, Rumlu əmirinin tapşırığını bacarıqla ifa edəcəyindən əmin idi. Gerçəkdən də Özbəklər ertəsi il (hicri 1002 = 1594, ilan ili) Nişapuru mühasirəyə aldıqda Dərviş Məhəmməd Xan əlindən gələni etmiş isə də ən sonunda özünə və əsgərlərinə toxunulmamaq şərti ilə şəhəri onlara təslim etmək məcburiyyətində qalmışdı. Dərviş Məhəmməd Xan, ertəsi il Gilanın Biye Piş bəylərbəyliyinə təyin edilmiş və bu vəzifəsində də uğur göstərmişdir. Rumlulardan digər bir əmir də II İsmayıl dövründəki xəlifətül-xüləfa olan Hüseyin Qulunun oğlu Məhəmməd Bəy idi. Şah Abbasın yaxınlarından olan Məhəmməd Bəy elçilik ilə ilk dəfə (hicri 1009 = 1600-1601 və hicri 1020 = 1611-1612) İstanbula getmişdir. Rumludan Məhəmməd Qulu hicri 1023 (1614-1615) tarixində xəlifətül-xüləfalıq mövqeyində bulunurdu. Rumlu əmirlərindən Dəniz Bəyə gəlincə, Şah Abbas onu elçilik ilə İspaniya kralına göndərmişdi. Ancaq Dəniz Bəy, elçilik ilə bağlı olmayan bir çox işlər görmüşdü. Bu arada pis davranışı üzündən buyruğundakılardan bəziləri «Rim Papa bilâdında», yəni Romada, bəziləri də İspaniyada xristian dininə girdilər. Bunlardan biri Bayat boyundan Oruc Bəy olub, İspaniyada bir iki əqrəbası ilə birlikdə xristianlığı qəbul etmiş və şəxsən İspaniya kralından Don Juan adını almışdı. Bu və digər qəbahətləri üzündən hicri 1022-də (1613 = Ud il) İrana dönən Dəniz Bəyin həyatına son verildi.

Şah Abbasın ölümü əsnasında Rumludan sadəcə bir əmir vardı. Bu da, Gilandakı Təngabən valisi Qoyla Hisarlu Bəyazid Sultan oğlu Heydər Sultan idi. Adı keçən əmir, Şah Səfi dövründə öldürülmüşdür (hicri 1041 = 1630-1631). Eyni hökmdar dövründə Bayat və Rumlulardan olan birər qolun Şirvanda Bəndər və Şabrana yerləşdirildiklərini bilirik. XIX yüzildə Batı Anadoluda Rumlu (yaxud Urumlu) adlı bir oymaq görünməkdədir. Bu oymağın İrandakı Rumluların XVIII yüzildə Anadoluya köç etmiş bir qolu olması ehtimal olunur.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**